BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2015*

**UOT 94"19/..."**

# MÜASİR DÖVRDƏ YAPONİYA-ASEAN MÜNASİBƏTLƏRİ

**Q.Ş.DAVUDOV**
***Bakı Dövlət Universiteti***
***qismetdavudov@rambler.ru***

Məqalədə müasir dövrdə Yaponiyanın ASEAN ölkələri ilə münasibətləri tədqiq olunub. Burada əsas diqqət Yaponiyanın Cənub-Şərqi Asiya, o cümlədən ASEAN ölkələri ilə siyasi və iqtisadi münasibətlərinin əsas istiqamətlərinin təhlilinə yönəlmişdir.

**Açar sözlər:** Təşkilat, inkişaf, azad ticarət zonası, iqtisadiyyat, bəyannamə

Müasir dövrdə Yaponiyanın xarici siyasətinin əsas istiqamətləri – ABŞ-la əməkdaşlığı davam etdirməkdən, dünyanın aparıcı dövlətlərindən biri olmaqla öz mövqeyini qoruyub saxlamaqdan və Asiya, o cümlədən Cənub-Şərqi Asiya ölkələri ilə əlaqələri genişləndirməkdən ibarətdir. ASEAN ölkələri ilə münasibətlər – Yaponiyanın Şərq siyasətinin ən mühüm hissəsini təşkil edir. Yaponiyanın Cənub-Şərqi Asiya ölkələri ilə siyasi və iqtisadi əlaqələri XX əsrin 70-ci illərindən başlayaraq həm ikitərəfli, həm də regional təşkilatlar, o cümlədən ASEAN çərçivəsində baş tutur.

ASEAN - (Association of South East Asian Nations – Cənub-Şərqi Asiya ölkələrinin Assosiasiyası) 1967-ci il avqustun 8-də Tailandın paytaxtı Banqkok şəhərində yaradılmış regional siyasi-iqtisadi təşkilatdır. Buraya Cənub-Şərqi Asiya ölkələri - İndoneziya, Malayziya, Filippin, Sinqapur, Tailand, Bruney sultanlığı, Vyetnam, Laos, Myanma, Kamboca daxildir. Təşkilatın əsas prinsiplərinə aiddir:

- üzv ölkələr arasında sosial, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı inkişaf etdirmək;
- Cənub-Şərqi Asiyada sülh və təhlükəsizliyin yaranmasını təmin etmək.

ASEAN - Asiya-Sakit okean regionunda iqtisadi-ticarət, siyasi və müdafiə məsələlərində böyük nüfuza malikdir. Bu təşkilat daha çox məsləhətləşmələrə, məsələlərə ümumi yanaşmaya və qarşılıqlı əməkdaşlığa üstünlük verir. (1) Elan edilmiş məqsədlərinə əsasən təşkilat regionda sosial, iqtisadi və mədəni əməkdaşlığa yardım etməli, onun siyasi və iqtisadi stabilliyini böyük

dövlətlərin rəqabətindən qorumalı, regiondaxili ziddiyyətlərin tənzimlənməsi forumu kimi xidmət göstərməlidir. Yüksək səviyyədə rəsmi görüşlər üç ildən bir, qeyri-rəsmilər isə hər il keçirilməlidir. Üzv ölkələrdə sıra ilə xarici siyasət idarələrinin rəhbərliyi səviyyəsində ASEAN-in illik «Nazir sessiyaları», vaxt-aşırı isə müxtəlif nazirliklərin rəhbərləri səviyyəsində görüşlər keçirilir. Hər bir ölkədə ASEAN işləri üzrə katiblik var. ASEAN-ın daimi komitəsi gündəlik siyasi planlaşdırma və əlaqələndirmə işlərini idarə edir. Eyni zamanda Cakartada yerləşən mərkəzi katiblik fəaliyyət göstərir. Onun tərkibinə üzv dövlətlərin əməkdaşlığın müxtəlif aspektlərdə təşkil edən dörd büro daxildir. Bütün bunlarla yanaşı beynəlxalq stabilliyin təmin olunması məsələlərinə getdikcə daha çox diqqət yetirilir. Xüsusilə də təhlükəsizlik problemləri üzrə ASEAN regional forumunun yaranması bunun bariz nümunəsidir.

ASEAN ölkələri istər region dövlətləri, istər beynəlxalq təşkilatlar, istərsə də iqtisadi cəhətdən aparıcı rola malik dövlətlərlə sıx əməkdaşlıq edir, qarşılıqlı iqtisadi və mədəni əlaqələr qurmağa çalışırlar. Belə ölkələrdən biri də Yaponiyadır. Yaponiya-ASEAN münasibətlərinin qurulması və inkişafında hər iki tərəfin maraqları vardır. Yaponiya-ASEAN əlaqələri 1972-ci ildə yaradılmışdır. XX əsrin 70-ci illərindən başlayaraq Yaponiya ABŞ-dan sonra ASEAN-la iqtisadi əlaqələri olan ikinci dövlətə çevrildi.1997-ci ildən etibarən hər il yapon liderlərinin iştirakı ilə ASEAN+1 (Yaponiya) sammiti keçirilir. Yaponiyanın ASEAN-la daimi əlaqələri hər il keçirilən Yaponiya-ASEAN forumu vasitəsilə də həyata keçirilir.

Müasir dövrdə Yaponiyanın siyasi maraqları və ölkənin təhlükəsizliyinin təmin edilməsi regionda hərtərəfli əlaqələrin inkişaf etdirilməsini tələb edir. Bu, ilk növbədə Çinin sürətli inkişafı, ABŞ-ın Yaponiyaya təzyiqlərinin artması və qonşu dövlətlərin Yaponiyaya inamının azalması təhlükəsi ilə bağlıdır.

Yaponiya-ASEAN forumlarında daha çox müzakirə edilən məsələlər sırasında ASEAN ölkələrində Yaponiyanın yaxından iştirakı və köməyi ilə kiçik və orta müəssisələrin inkişaf etdirilməsi, eyni zamanda iqtisadiyyatın bir çox sahələrinin - ticarətin, sənayenin, xüsusilə də ağır sənayenin, nəqliyyatın, qaz istehsalı sahəsinin inkişaf etdirilməsi, yerli ixtisaslı mühəndislərin hazırlanması, kənd təsərrüfatının inkişafına dair proqramlar nəzərdə tutulurdu.

Bundan başqa, Yaponiya və ASEAN üzvü olan ölkələrin dövlət və hökumət başçıları müntəzəm olaraq keçirilən ASEAN+3 (Yaponiya, Çin və Koreya Respublikası) və Cənub-Şərqi Asiya ölkələrinin sammitlərində də görüşürlər. Yaponiyanın ASEAN-la əlaqələri, həmçinin yüksək ranqlı məmurlar– nazirlər, nazir müavinləri, ayrı-ayrı sahələr üzrə müəssisə rəhbərləri, ASEAN-ın işçi orqanları, akademik mərkəzlər və qeyri-hökumət təşkilatları vasitəsilə də həyata keçirilir. XXI əsrin əvvəllərindən Yaponiya- ASEAN dialoqları daha geniş xarakter almışdır. Yaponiya «ASEAN+3» və «ASEAN+Yaponiya» forumlarında daha fəal rol oynayır. Məhz Yaponiyanın təklifi ilə bir sıra qərarlar qəbul edilir və onların yerinə yetirilməsi məsələləri müzakirə olunur (1). Uzun sürən tərəddüdlərdən sonra Yaponiya 2004-cü ildə Cənub-Şərqi Asiyada Sülh və

əməkdaşlıq müqaviləsinə qoşuldu və bu da onun ASEAN-la münasibətlərinin daha da yaxşılaşmasına təkan verdi.

Yaponiya hökuməti bir çox hallarda Cənub-Şərqi Asiya ölkələrinə, ASEAN təşkilatının üzvlərinə iqtisadi yardımlar edir, öz ölkəsinin maraqlarını nəzərə almaqla, həmin ölkələrdə yeni müəssisələrin açılmasında, investisiya qoyuluşunda yaxından iştirak edirdi. 2003-cü il dekabrın 10-da Yaponiyanın Baş naziri S.Koidzumi öz iqamətgahında Tokioda keçirilən Yaponiya-ASEAN xüsusi sammitinin iştirakçısı olan İndoneziya prezidenti Meqavata Sukarnoputranı, Vyetnamın Baş naziri Hun Seni qəbul edir. İndoneziya prezidenti ilə görüşündə S.Koizumi Yaponiyanın İndoneziyaya məişət xidməti müəssisələrinin, limanların və elektrik enerjisi sistemlərinin tikintisi üçün 100 milyard ien kredit verəcəyini bildirmişdi (4).

ASEAN təşkilatının regional forumlarında daha çox müzakirə edilən məsələlərdən biri də beynəlxalq terrorizmə qarşı mübarizə məsələsidir. 2004-cü ildə Yaponiya ilə ASEAN arasında beynəlxalq terrorizmə qarşı birgə mübarizə aparmağa dair müqavilə imzalandı (5). Yaponiya beynəlxalq terrorizmə qarşı mübarizədə birgə əməkdaşlığa bir tərəfdən Şərqi Asiyada təhlükəsizliyin möhkəmləndirilməsi, digər tərəfdən isə strateji sabitliyin qorunub saxlanılması vasitəsi kimi baxır. Yaponiyanın Baş naziri Koidzumi Şərqi Asiyada bir neçə qeyri-sabit ölkənin – İndoneziyanın, Filippinin və Tayvanın olduğunu göstərmiş və qonşu dövlətləri həmin ölkələrə terrorizmə qarşı mübarizədə əməli yardımın göstərilməsinə çağırmışdı (7).

Yaponiya-ASEAN münasibətləri iqtisadi-ticarət sahəsini olduğu kimi, digər sahələri, o cümlədən səhiyyəni də əhatə edir. 2005-ci ildə Yaponiyanın Baş naziri Koizumi Zyuniçiro ASEAN ölkələrinə yoluxucu xəstəliklərə qarşı mübarizə məqsədilə 130 milyon ABŞ dolları məbləğində vəsait və quş qripinə qarşı 500 min doza peyvənd verildiyini elan etdi (7). Bütün bu tədbirlər ASEAN ölkələrində əhalinin sağlamlığının qorunmasına və səhiyyənin səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Şərqi Asiyada baş verən proseslər regionda sülh və təhlükəsizliyin təmin edilməsinə bütün region dövlətlərinin cəlb edilməsini zəruri edirdi. Bu məqsədlə də regionun aparıcı dövlətləri olan Yaponiya və Çinin iştirakı ilə bir sıra forumların keçirilməsi məqsədəuyğun hesab edilirdi. 2005-ci il dekabrın 12-də Kuala-Lumpurda (Malayziya) keçirilmiş ASEAN ölkələrinin növbəti illik sammitində üzv ölkələrlə yanaşı, Çin, Yaponiya və Koreya Respublikası da iştirak edirdilər. Sammitin nəticəsi olaraq, «Kuala-Lumpur Bəyannaməsi» imzalanmışdı. Bəyannamədə Şərqi Asiyada sülhün və təhlükəsizliyin təmin edilməsi, region iqtisadiyyatının inteqrasiyası istiqamətində birgə səylərin göstərilməsi məsələsi öz əksini tapmışdı (6).

XXI əsrin əvvəllərində Yaponiyanın xarici siyasətinin əsas istiqamətlərindən biri də regionun həlli vacib problemlərinin məhz region ölkələrinin vəsaiti və birliyi hesabına həll edilməsinə nail olunmasından ibarətdir. Bu məqsədlə də bir sıra regional forumlar yaradılır, maddi mənbələr təşkil edilirdi. 2006-cı ildə

Yaponiya-ASEAN İnteqrasiya fondu (JAİF) yaradıldı. Yaponiya fonda 70 milyon ABŞ dolları məbləğində vəsait qoymuşdu. Fond regionun ən mühüm əhəmiyyətli problemlərinin həlli ilə məşğul olmaq məqsədilə yaradılmışdı (5). Bu fondun yaradılması ilə, Yaponiya əslində region ölkələrinin problemlərinin həllində Qərb dövlətlərinin iştirakının zəiflədilməsinə çalışırdı.

ASEAN təşkilatının qarşısında duran konkret vəzifələrdən birini Cənub-Şərqi Asiyada azad ticarət zonasının yaradılması təşkil edirdi. Bu zonanın yaradılması 2008-ci ildə başa çatmalı idi. Belə bir zona yalnız ASEAN ölkələrini əhatə etməli idi. Lakin 2001-ci ildə ASEAN ölkələri, Yaponiya, Çin və Koreya Respublikasının dövlət və hökumət başçılarının Sinqapurda keçirilən növbəti sammitində belə bir qərar qəbul edildi ki, azad ticarət zonasına yalnız ASEAN üzvü olan dövlətlər deyil, həm də Yaponiya, Çin və Koreya Respublikası daxil olmalıdırlar. 2009-cu il oktyabrın 25-də Tailandın Xuaxin kurort şəhərində Asiyanın 16 ölkəsinin, o cümlədən ASEAN ölkələrinin iştirakı ilə keçirilmiş sammitdə iqtisadi inteqrasiyaya, təbii fəlakətlər və iqlim dəyişkənliyi ilə mübarizəyə, Çinlə ticarət sahəsində əməkdaşlığın genişləndirilməsinə dair bir sıra sənədlər imzalandı (6). Sammitin gedişində əsas müzakirə edilən məsələlərdən biri də 2015-ci ilin yanvarı üçün Şərqi Asiyada Avropa İttifaqı nümunəsində azad iqtisadi zonanın yaradılması oldu. Sammitdə Yaponiyanın baş naziri Hatoyama Yukio ASEAN ölkələrinə gələcəkdə Yaponiyanın təşəbbüsü və ABŞ-ın iştirakı ilə yaradılması nəzərdə tutulan Şərqi Asiya Birliyinə daxil olmağı təklif etdi (7). Yaponiya bu əməkdaşlığın daha çox ASEAN+3 (Yaponiya, Cənubi Koreya və ÇXR) formatında qurulmasını istəyir. Əslində Şərqi Asiya Birliyi ideyasını Hatoyama Yukio ilk dəfə BMT tribunasından hələ 2009-cu ilin sentyabrında səsləndirmişdi. Bu konsepsiyanı o, «Yeni Yaponiya» ideyası adlandırırdı və burada Yaponiya regional inteqrasiyada aparıcı rol oynamalı idi.

Bu istiqamətdə görülən əməli işlərin nəticəsində 2010-cu il yanvarın 7-də Çin-ASEAN azad ticarət zonasının təntənəli açılışı oldu. Bu zonanın açılması Çin və ASEAN ölkələrinin iqtisadi inteqrasiyasına təkan verəcəkdir. Belə bir zonanın 2012-ci ildə Yaponiya ilə ASEAN arasında da açılması nəzərdə tutulur (6). Məhz 2015-ci ildə ASEAN-ın qüvvəyə minəcək Xartiyasına əsasən, region ölkələrinin inkişafı və iqtisadi inteqrasiyası daha da yüksək səviyyəyə qalxacaqdır.

2009-cu il dekabrın 28-də ASEAN, Yaponiya, Çin, Honkonq və Koreya Respublikası 120 milyard ABŞ dolları məbləğində vəsaiti olacaq Regional Ehtiyat Valyuta Fondunun yaradılmasına dair saziş imzaladılar. Fondun yaradılmasında məqsəd dünya iqtisadiyyatında baş verən böhran risqinin aradan qaldırılması, bu böhranın Şərqi Asiyaya təsir göstərməsinin aradan qaldırılması üçün birgə səylərin göstərilməsi idi. «Çianq May Təşəbbüsü» adlanan fondun vəsaitlərinin 38,4 milyard ABŞ dolları Yaponiyanın, 38,4 milyard ABŞ dolları Çin və Honkonqun, 24 milyard ABŞ dolları ASEAN ölkələrinin və 19,2 milyard ABŞ dolları Koreya Respublikasının payına düşür (8). Əldə edilmiş

razılığa əsasən, üzv dövlətlərin hər biri milli valyutasını sabit saxlamaq məqsədilə onu fondun vəsaitləri hesabına ABŞ dolları ilə dəyişdirmək, qısamüddətli iqtisadi böhranları aradan qaldırmaq üçün həmin vəsaitlərdən istifadə etmək hüququna malikdirlər.

2009-cu ilin fevralında Yaponiya hökuməti inkişaf etmiş Asiya ölkələrində ticarətin himayə edilməsi məqsədilə 1 milyard dollar kredit ayrılacağını elan etdi. Bundan məqsəd, Asiya ölkələrində nisbətən zəifləmiş ticarət əlaqələrinin sürətli inkişafına nail olmaq idi. Kreditlərin ilk növbədə ASEAN ölkələrinə, xüsusilə də İndoneziyaya verilməsi nəzərdə tutulurdu.

2011-ci il avqustun 15-də Tokioda Yaponiya iqtisadiyyat naziri Banri Kayeda Yaponiyanın həmin ilin martında baş vermiş təbii fəlakətdən sonra öz iqtisadiyyatını dirçəltmək məqsədilə daha sıx əlaqələr qurmalı olduğu regionlar və ölkələr içərisində ASEAN ölkələrini xüsusilə qeyd etmişdir. O, 2011-ci ilin avqust ayında İndoneziyanın Manado şəhərində Myanma (Birma), Laos, Tayland, Kamboca və Vyetnam dövlətlərinin iqtisadiyyat nazirləri ilə görüşündən sonra bu qənaətə gəlmişdi (10).

2013-cü ilin sonlarında Tokioda Yaponiya ilə ASEAN ölkələrinin dövlət və hökumət başçılarının sammitində Yaponiyanın baş naziri Şinco Abe bildirmişdi ki, onun ölkəsi qarşıdan gələn 5 il ərzində ASEAN ölkələrinə 2 trilyon iyen (19,5 milyard ABŞ dolları) vəsait ayıracaqdır (11). Bu vəsaitin ASEAN ölkələrində təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması, fövqəladə hallar üzrə mütəxəsislərin hazırlanması, həmin ölkələrin infrastrukturunun yaxşılaşdırılması üçün xərclənməsi nəzərdə tutulur.

Son 30 ildə Yaponiyanın daha çox investisiya qoyduğu ölkə Çin olmuşdur. Lakin 2014-cü ildən başlayaraq artıq investisiya qoyuluşunda ASEAN ölkələri Çini arxada qoyurlar. Fəhlə əməyinin dəyərinin artması, Çin yuanının dəyərinin azalması, iki dövlət arasında Senkoku adaları ilə bağlı mütəmadi baş verən narazılıqlar, Yaponiya iqtisadiyyatı üçün xarakterik olan depressiyalar yapon investorlarının diqqətini Çindən ASEAN ölkələrinə çevirir. Digər tərəfdən, ASEAN ölkələri potensial satış bazarına, dinamik iqtisadi inkişafa və ucuz işçi qüvvəsinə malikdirlər.

Yaponiyanın ASEAN-la münasibətlərində Cənubi Çin dənizindəki vəziyyət də xüsusi yer tutur. Belə ki, Çin Xalq Respublikası (ÇXR) Cənubi Çin dənizinin bir hissəsi ilə bağlı ASEAN üzvü olan Filippinə, Vyetnama, Bruneyə və Malayziyaya qarşı ərazi iddiaları irəli sürür ki, bu da ÇXR-nin həmin dövlətlərlə yalnız ikitərəfli münasibətlərinin deyil, həm də regionda vəziyyətin gərginləşməsinə səbəb olur. Cənubi Çin dənizinin əhəmiyyəti ondadır ki, buradan mühüm beynəlxalq ticarət yolları keçir, bu ərazi dəniz məhsulları, o cümlədən balıqla zəngindir, bu ərazidə zəngin təbii qaz və neft yataqları vardır (12). Cənubi Çin dənizi məsələsində Yaponiya ASEAN ölkələrinin mövqeyini müdafiə edir.

Yaponiya-ASEAN münasibətləri hal-hazırda aşağıdakı prinsiplər əsasında inkişaf edir:

- bərabər hüquqlar və qarşılıqlı ehtiram qorunub saxlanılmalıdır;

- beynəlxalq hüquq normalarına hörmət edilməli və onlar qorunmalı, daxili işlərə qarışılmaması prinsipinə riayət edilməli, qəbul edilmiş beynəlxalq normaların və insan hüquqlarının kobud şəkildə pozulması zamanı tövsiyələrə, iradlara və tənqidlərə hörmətlə yanaşılmalıdır;

- bu münasibətlər üçüncü tərəf (ölkə) üçün təhlükə yaratmamalı və digər ölkələrə qarşı çevrilməməlidir;

- bu münasibətlər Şərqi Asiya Birliyi çərçivəsində geniş əməkdaşlıq və quruculuq işlərinə, sülhün və tərəqqinin həyata keçirilməsinə xidmət etməlidir;

- bu münasibətlər ASEAN birliyinin zəifləməsi və dağılmasına deyil, onun daha da möhkəmlənməsinə və genişlənməsinə xidmət etməlidir.

Bu gün də Yaponiyanın ASEAN-la əməkdaşlığı və qarşılıqlı münasibətləri uğurla inkişaf etməkdədir ki, bu da təkcə Yaponiya və ya ASEAN ölkələri üçün deyil, bütövlükdə region üçün çox əhəmiyyətli iqtisadi nəticələrin əldə edilməsinin təminatıdır.

## ƏDƏBİYYAT


1. Самойленко В.В. АСЕАН. Политика и экономика. М.,1982
2. Плеханов Ю.А., Рогожен А.А. Экономика и политика АСЕАН. М.,1985
3. Илюмжинов К.Н. Япония - АСЕАН: Политическое измерение. Элиста,1998
4. www.russian.people.com.cn/.../rus20031212_85342.html
5. wwww.one-bu.com/19/2620-political_e…-cooperation.html
6. www.novoteka.ru/sevent/6448484/
7. ria.ru/world/20091025/190481826.html
8. Арешидзе Л.Г. Международные отношения в Восточной Азии. Угрозы и надежды. М., 2007
9. www.finmarket.ru/z/nws/news.asp?id=1381131
10. AsiaReport.ru/.../7250-yaponiya-...zi-s-asean
11. teleqraf.com.ua/mir/aziya/954964- yaponiya
12. Стапран Н.В. Япония и Китай в борьбе за влияние в регионе Юго-Восточной Азии (20.11.2013) – japanstudies.ru/index.php


## ОТНОШЕНИЯ ЯПОНИИ С ГОСУДАРСТВАМИ АСЕАН НА СОВРЕМЕННОМ ЭТАПЕ


**Г.Ш.ДАВУДОВ**


## РЕЗЮМЕ


В статье исследуются взаимоотношения Японии с государствами АСЕАН на современном этапе. Основное внимание в ней уделено анализу основных направлений политических и экономических отношений Японии с государствами Юго-Восточной Азии, в том числе со странами АСЕАН.



**Ключевые слова:** организация, развитие, зона свободной торговли, экономика, декларация

**JAPANESE-ASEAN RELATIONS IN MODERN AGE**

**G.Sh.DAVUDOV**

**SUMMARY**

This article explores Japan's relation with ASEAN members in modern age. Main emphasis is focused on the analysis of political-economic relations between Japan and South-East Asian states as well as relations between Japan and ASEAN members.

**Key words:** organization, development, free trade zone, economy, declaration